**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Coğrafiya fakültəsi “Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası” kafedrası**

**MAGİSTRATURA PİLLƏSİ ÜÇÜN**

# PROQRAM

**(I Kurs)**

**İXTİSAS- Coğrafiya**

**İXTİSASLAŞMA- Azərbaycan və qonşu ölkələrin sosial-iqtisadi coğrafiyası**

**FƏNN- “Azərbaycan şəhərlərinin sosial-iqtisadi coğrafiyası”**

**Bakı Dövlət Universiteti Coğrafiya fakültəsi Elmi Şurasının 02 iyun 2023 12 saylı iclasının qərarı ilə fənn proqramı kimi təsdiq edilmişdir.**

**BAKI-2023**

**Elmi redaktor:**

**Eminov Zakir-** AMEA, Akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun direktoru

**Tərtib edən:**

**Nağıyev Saleh Qasım o.-** BDU, Coğrafiya fakültəsi, Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrasının müdiri, dosent

**Rəy verənlər:**

**Əhmədova İradə İsgəndər q.**- BDU, Coğrafiya fakültəsi, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının dosenti

**Dərgahov Vüqar Səttar o.-** BDU, Coğrafiya fakültəsi, Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının dosenti.

## Azərbaycan şəhərlərinin sosial-iqtisadi coğrafiyası.

## İzahat vərəqəsi

Azərbaycan şəhərlərinin sosial-iqtisadi coğrafiyası fənni BDU-nun coğrafiya fakültəsində "Azərbaycanın və onunla qonşu ölkələrin iqtisadi və sosial coğrafiyası" ixtisası üzrə təhsil alan magistranrlara 1-ci kursun 2-ci semestrində 60 saat həcmində (45 saat mühazirə 15 saat məşğələ) tədris edilir.

Bu fənnin tədrisinin əsas məqsədi Coğrafiya fakültəsi magistrantlarına Azərbaycan şəhərlərinin formalaşma və inkişafının iqtisadi-coğrafi xüsusiyyətini təhlil etmək, onların ölkənin sosial-iqtisadi həyatında yerini və perspektiv inkişaf istiqamətini müəyyən etməkdir.

Bu məqsədlə tərtib olunan proqram Azərbaycan şəhərlərinin formalaşması tarixi, inkişaf mərhələləri, onların müasir inkişaf perspektivlərini ierarxiya və regional strukturunu əhatə edir. Tərtib olunan bu proqram magistrların dissertasiya işlərinin yerinə yetirilməsi zamanı da istiqamətverici baza kimi də istifadə edilə bilər.

**Fənnin mənimsənilməsi nəticəsində tələbələr bilməlidir:**

- Azərbaycan Respublikası şəhərlərinin tarixi və inkişaf mərhələləri
- Azərbaycan Respublikası şəhərlərinin formalaşması və inkişaf xüsusiyyətləri
- Azərbaycan Respublikasının şəhərlərinin iqtisadi-coğrafi mövqeyi
- Azərbaycan Respublikası şəhərlərinin sosial-iqtisadi səciyyəsini və perspektiv inkişaf istiqamətini
- Azərbaycan Respublikası şəhərlərinin sosial imkanları və funksional xüsusiyyətləri
- Azərbaycan Respublikası şəhərlərinin milli tərkibi və demoqrafik xüsusiyyətləri
- Azərbaycan Respublikasının iqtisadi rayonlarının şəhər yaşayış məntəqələri

**Bacarmalıdır:**

- Azərbaycan Respublikası şəhərlərinin əsas inkişaf mərhələləri
- Azərbaycan şəhərlərinin formalaşması xüsusiyyətləri
- Azərbaycan Respublikası şəhərlərinin iqtisadi-coğrafi mövqeyinin qiymətləndirilməsi
- Azərbaycanda nəqliyyat, şəhərsalma və urbanizasiya prosesləri
- Azərbaycan qəsəbələrinin təbii iqtisadi potensialı
- Azərbaycan şəhərlərinin ekoloji problemləri və həlli yolları
- Azərbaycan Respublikası iqtisadi rayonlarının milli tərkibi

**Yiyələnməlidir:**

- Azərbaycan Respublikası şəhərlərinin tarixi inkişafına
- Azərbaycan Respublikası şəhərlərinin formalaşması mərhələlərinə
- Azərbaycan Respublikası şəhərlərinin inkişaf xüsusiyyətlərinə
- Azərbaycan Respublikası şəhərlərinin iqtisadi-coğrafi mövqeyinin qiymətləndirilməsinə
- Azərbaycan Respublikası şəhərlərinin sosial-iqtisadi səciyyəsinin dəyərləndirilməsinə
- Azərbaycan Respublikası şəhərlərinin perspektiv inkişaf istiqamətlərinin müəyyən olunmasına

| № | Mövzular | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | **müh** | **lab.** |
| 1. | Azərbaycan şəhərlərinin sosial-iqtisadi coğrafiyası kursunun məzmunu, məqsədi, vəzifələri | 2 | 2 | |
| 2. | Müasir urbanizasiyanın əsas anlayışları xüsusiyyətləri və inkişaf perspektivləri | 2 | 2 | |
| 3. | Şəhərlərin funksiyası və Azərbaycanın yaşayış məntəqə-lərinin müasir təsnifatı | 4 | 2 | 2 |
| 4. | Azərbaycan şəhərlərinin regional və funksional xüsusiyyətləri | 2 | 2 | |
| 5. | Azərbaycan şəhərlərinin inkişafı-nın əsas tarixi mərhələləri | 2 | 2 | |
| 6. | Azərbaycan şəhərlərinin sosial imkanları və qanunauyğunluqları | 4 | 2 | 2 |
| 7. | Azərbaycanın kiçik şəhərlərinin inkişafının təbii iqtisadi potensialı | 2 | 2 | |
| 8. | Azərbaycanın orta şəhərlərinin inkişafının təbii iqtisadi potensialı | 2 | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| 9. | Azərbaycanın qəsəbələrinin inkişafının təbii iqtisadi potensialı | 2 | 2 | |
| 10. | Azərbaycan şəhərlərinin inkişafında iqtisadi, ekoloji amillər şəhər və torpaq | 4 | 2 | 2 |
| 11. | Azərbaycan şəhərlərinin inkişafında iqtisadi coğrafi mövqeyin əhəmiyyəti | 2 | 2 | |
| 12. | Müasir dövrdə Azərbaycan şəhər əhalisinin demoqrafik xüsusiyyətləri, milli tərkibi, beynəlxalq miqrasiya | 2 | 2 | |
| 13. | Azərbaycanda şəhərsalma, nəqliyyatı və urbanizasiya | 4 | 2 | 2 |
| 14. | Şəhər və paytaxt fenomeni: tədqiqatın nəzəri aspekti, ümumi və fərdi xüsusiyyətləri. | 2 | 2 | |
| 15. | Şəhərlərin davamlı inkişaf strategiyası və yeni iqtisadi münasibətlər | 2 | 2 | |
| 16. | Bakı və Abşeron-Xızı iqtisadi rayonun şəhər yaşayış məntəqələri | 4 | 2 | 2 |
| 17. | Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonun şəhər yaşayış məntəqələri | 2 | 2 | |
| 18. | Mərkəzi Aran, Şirvan-Salyan və Mil-Muğan iqtisadi rayonun şəhər yaşayış məntəqələri | 2 | 2 | |
| 19. | Şəki-Zaqatala iqtisadi rayonları-nın şəhər yaşayış məntəqələri | 4 | 2 | 2 |
| 20. | Quba-Xaçmaz iqtisadi rayonunun şəhər yaşayış məntəqələri | 2 | 2 | |
| 21. | Lənkəran-Astara və Dağlıq Şirvan iqtisadi rayonlarının şəhər yaşayış məntəqələri | 2 | 2 | |
| 22. | Naxçıvan iqtisadi rayonunun şəhər yaşayış məntəqələri | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| 23. | Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan iqtisadi rayonların şəhər yaşayış məntəqləri | 2 | 1 | 1 |
| | **Cəmi** | **60** | **45** | **15** |

**Mövzular və onların məzmunu**

**1. Azərbaycan şəhərlərinin sosial-iqtisadi coğrafiyası kursunun məqsədi və vəzifələri.** Şəhərlər ən böyük təsərrüfat mərkəzidir. Şəhərlər əhalinin əsas məskunlaşma mərkəzidir. Azərbaycan şəhərlərinin öyrənilməsində A. Nadirovun, Ə. Hacızadənin, V. Əfəndiyevin, N. Babaxanovun, N. Əyyubovun, E. Mehrəliyevin və başqaların rolu. Şəhərlərin elmi tədqiqinin elmi-nəzəri əsasları.

**2. Müasir urbanizasiyanın əsas anlayışları xüsusiyyətləri və inkişaf perspektivləri.** Şəhər anlayışı və onu təyin edən meyarlar. Müasir urbanizasiyanın əsas xüsusiyyətləri. Böyük şəhərlərin qabağlayıcı inkişaf istehsalın təməzküzləşməsi və məskunlaşmanın kontrastlaşmasının güclənməsi. Şəhər aqlomerasiyalarının formalaşması. Hiperurbanizasiya, suburbanizasiya prosesləri. Şəhərlərin iqtisadi və sosial bazaların inkişafı və demoqrafik inkişaf xüsusiyyəti.

**3. Şəhərlərin funksiyası və Azərbaycanın yaşayış məntəqələrinin müasir təsnifatı.** Şəhər yaradıcı və şəhərə xidmət edən sahələr. Polifunksional və monofunksional anlayışı. Şəhərlərin təsnifatında funksiya əsas meyar kimi. Şəhərlərin təsnifatı meyarları-genezis, iqtisadi-coğrafi mövqeyi. Azərbaycan şəhərlərin növləri. Mərkəzi yerlər-paytaxt,iqtisadi rayonların mərkəzləri, inzibati mərkəzlər, ixtisaslaşmış mərkəzlər. Məskunlaşmış ərazinin quruluşu. Müəyyən xüsusiyyətlərinə görə şəhərlərin təsnifatı.

**4. Azərbaycan şəhərlərinin regional və funksional xüsusiyyətləri.** Şəhərlərin ölkə ərazisində yerləşmə xüsusiyyətləri. Böyük və Kiçik Qafqazın təbii vilayətlərinin şəhər və qəsəbələri. Kür çökəkliyi təbii vilayətinin şəhər məskunlaşması. Şəhərlərin yerləşməsinə təsir edən sosial-iqtisadi, təbii-coğrafi və s. amillər.

**5. Azərbaycan şəhərlərinin inkişafının əsas tarixi mərhələləri.** Şəhər əməyinin coğrafi bölgüsünün məhsuludur. İctimai əmək bölgüsünün dərinləşməsi prosesində şəhərlərin tarixi inkişaf dövrləri. Qədim Şərqin şəhərləri. Feodalizm dövrünün şəhərləri. Yeni dövrün və XX əsrin şəhərləri.

**6.Azərbaycan şəhərlərinin sosial inkişaf imkanları və qanunauyğunluqları.** Sosial struktur (sosial tərkib) anlayışı. Cəmiyyətin inkişafının müxtəlif dövrlərində sosial struktur. Sosial mobillik və sosial stratifikasiya. Müxtəlif tip ölkələrdə sosial struktur. Dünya birliyinə sosial strukturun 3 tipi məlumdur: a) Demokratik bazar cəmiyyəti modeli, b)Zəif inkişaf etmiş, lakin bazar iqtisadiyyatına əsaslanan cəmiyyətə söykənən sosial struktur modeli, c)Keçmiş sosialist cəmiyyətlərinin təbəqələşməsi modeli

**7.Azərbaycanın kiçik şəhərlərinin inkişafını təbii-iqtisadi potensialı.** Kiçik şəhər anlayışı və onun fərqləndirici xüsusiyyətləri. Məskunlaşma sistemində kiçik şəhərlərin yeri. Təbii mühiti kiçik şəhərlərin görünüşünə təsiri, onların funksiyası, əhalinin yaşayış tərzi. Ərazi planlaşdırılması və kiçik şəhərlərdə əməkdar qüvvələrin yerləşdirilməsi.

**8. Azərbaycanın orta şəhərlərinin inkişafını təbii-iqtisadi potensialı.** Orta şəhər anlayışı və onun fərqləndirici xüsusiyyətləri. Məskunlaşma sistemində orta şəhərlərin yeri. Təbii mühiti orta şəhərlərin görünüşünə təsiri, onların funksiyası, əhalinin yaşayış tərzi. Ərazi planlaşdırılması və orta şəhərlərdə əməkdar qüvvələrin yerləşdirilməsi.

**9.Azərbaycan qəsəbələrinin təbii-iqtisadi inkişaf potensialı.** Azərbaycanda qəsəbələrin inkişaf tarixi. Qəsəbələrin funksional-genetik növləri. Qəsəbələrdə əhali və nəqliyyatın inkişafı. İqtisadi-coğrafi rayonlar üzrə qəsəbələrin paylanması. Qəsəbələrin inkişaf problemləri və perspektivləri.

**10.Azərbaycan şəhərlərinin inkişafında iqtisadi, ekoloji amillər şəhər və torpaq.** Şəhərlərdə ərazinin kompleks ekoloji qiymətləndirilməsinin quruluşu və prinsipləri. Biosferin və istehsalın artması arasında olan ziddiyyətlərin kəskinləşməsi ən əsas problemlər kimi araşdırılır. Ətraf mühitin ifrat dərəcədə çirkləndirilməsi, sənaye müəssisələrindən, enerji qurğularından və nəqliyyatdan zərərverici maddələrin kütləvi tullanması. Şirin su problemləri və şəhərlərin su təchizatı problemləri. Atmosferin və su hövzəsinin çirkləndirilməsi, meşələrin kütləvi qırılması, torpaq qatının münbütliyinin azalması, səhralaşması və s.

**11. Azərbaycan şəhərlərinin inkişafında iqtisadi coğrafi mövqeyin əhəmiyyəti.** İqtisadi mövqeyi anlayışı və onun meyarları. Azərbaycanın iqtisadi mövqeyi və şəhərlərin inkişafına təsiri. Mikro, mezo və makro mövqelər. Nəqliyyat coğrafi mövqeyi. Bakı şəhərinin iqtisadi-coğrafi mövqeyin səciyyəsi. Gəncə və Sumqayıtın iqtisadi-coğrafi mövqeləri.

**12.Müasir dövrdə Azərbaycan şəhər əhalisinin demoqrafik xüsusiyyətləri, milli tərkibi, beynəlxalq miqrasiya.** Şəhər əhalisinin öyrənilməsi. Şəhərin artım dinamikası. Əhalinin demoqrafik strukturu (cins, yaş, milli). Əhalinin mexaniki və təbii artımı. Kəfkirvari miqrasiyanın təhlili. Demoqrafik vəziyyətin rəngarəngliyi və assimetriyası. Əhalinin artım tempinin öyrənilməsinin layihə mərhələləri onların üstünlüyü və çatışmamazlıqları. Əmək balansı üsulu ilə əhalinin perspektiv sayının öyrənilməsi. Əhalinin sayının öyrənilməsində ehtiyyatın nəzərə alınması.

**13.Azərbaycanda şəhərsalma, şəhər nəqliyyatı və urbanizasiya.** Şəhər planaalmasının nəqliyyat əsası. Mədəni - məişət və əmək meyilli mərkəzlərin mikrocoğrafiyası. Sərnişin axınının müəyyənləşdirilməsi. Şəhər nəqliyyatının müxtəlif növlərinin sürəti və daşınma xüsusiyyətləri. Planaalma layihəsində şəhər nəqliyyatının əlverişli növlərinin seçilməsi. Magistral yolların və küçələrin təsnifatı.

**14. Şəhər və paytaxt fenomeni: tədqiqatın nəzəri aspekti, ümumi və fərdi xüsusiyyətləri.** Şəhər "paytaxt" anlayışı və öz vəzifəsinin idarəetmə və icraetmə qabiliyyətinə malik olması. Ölkənin iqtisadi, idarəedici liderliyində, idarəetmə özünəməxsusluğu, güclü demo-iqtisadi potensialı. Dövlətin istər milli, istərsə də beynəlxalq əlaqələrin həyata keçirməsində paytaxtın əlverişli İCM-in olmasının vacibliyi.

**15. Şəhərlərin davamlı inkişaf strategiyası və yeni iqtisadi münasibətlər.** Davamlı inkişaf haqqında anlayış. Davamlı inkişafı tətbiq etməsi üçün strateji məqsədlər. İqtisadi, sosial və ekoloji tarazlıq haqqında anlayış. Şəhərlərin sosial-iqtisadi inkişafının idarə edilməsi. Şəhərlərdə keyfiyyət və kəmiyyət tendensiyaları.

**16. Bakı və Abşeron-Xızı iqtisadi rayonun şəhər yaşayış məntəqələri.** Tərkibi. Formalaşma mərhələləri. Neft-kimya sənayesinin inkişafı şəhəryaradıcı amildir. Paytaxt amili. Abşeron şəhər və qəsəbələrinin demoqrafik inkişaf xüsusiyyəti. Demoqrafik və sosial-iqtisadi

təzyiqin güclənməsi. Ekoloji şəraitin gərginləşməsi. Bakının və Bakı aqlomerasiyasının inkişafının tənzimlənməsi problemləri.

**17. Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonun şəhər yaşayış məntəqələri.** Tərkibi. Əhalisi. Şəhər və qəsəbələrin formalaşma xüsusiyyətləri. Maddi və sosial infrastrukturun inkişafı, şəhər və qəsəbələrin inkişafı. Gəncə şəhərinin sosail-iqtisadi və demoqrafik inkişafı. Şəhərlərin inkişafının perspektiv tənzimlənməsinin sosial-iqtisadi istiqamətləri.

**18. Mərkəzi Aran, Şirvan-Salyan və Mil-Muğan iqtisadi rayonun şəhər yaşayış məntəqələri.** Tərkibi. Şəhər və qəsəbələrin formalaşma və inkişaf xüsusiyyətləri. Təsərrüfatın inkişafının iqtisadi bazasının formalaşmasında şəhərlərin rolu. Yanacaq-energetika sənayesi və yeni şəhərlərin inkişafı. Mingeçevir, Şırvan, Yevlax, Salyan və s. məskunlaşmasının əsas istinad-dayaq karkaslarıdır. Region şəhərlərinin perspektiv inkişaf problemləri.

**19. Şəki-Zaqatala iqtisadi rayonun şəhər yaşayış məntəqələri.** İqtisadi rayonun tərkibi. Şəhərlərinin formalaşmasının və inkişafının xüsusiyyətləri. İstehsal və sosial infrastrukturların inkişafı. Əhalinin məskunlaşmasında əhəmiyyət kəsb edən şəhərlərin səciyyəsi. Şəhərlərdə kurort-turist təsərrüfatının inkişafında təbii şəraitin rolu.

**20. Quba-Xaçmaz və Dağlıq Şirvan iqtisadi rayonların şəhər yaşayış məntəqələri.** İqtisadi rayonların tərkibi və iqtisadi potensialları. Şəhərlərin formalaşmasının və inkişafının xüsusiyyətləri. Şəhərlərdə istehsal və sosial infrastrukturların inkişafı. Əhalinin məskunlaşma karkasında əhəmiyyət kəsb edən şəhərlər. Şəhərlərdə kurort-turist təsərrüfatının inkişafında təbii şəraitin rolu.

**21. Lənkəran iqtisadi rayonun şəhər yaşayış məntəqələri.** İqtisadi rayonun tərkibi. Şəhərlərinin formalaşmasının və inkişafının xüsusiyyətləri. İstehsal və sosial infrastrukturların inkişafı. Əhalinin məskunlaşmasında əhəmiyyət kəsb edən şəhərlərin səciyyəsi. Şəhərlərdə kurort-turist təsərrüfatının inkişafında təbii şəraitin rolu.

**22. Naxçıvan iqtisadi rayonun şəhər yaşayış məntəqələri.** İqtisadi rayonun tərkibi və inkişafının iqtisadi potensialı. Muxtar respublikanın şəhərlərinin formalaşmasının və inkişafının xüsusiyyətləri. Demoqrafik inkişafına blokada vəziyyətdə olmasının təsiri. Naxçıvan şəhərinin iqtisadi-coğrafi səciyyəsi

**15. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonların şəhər yaşayış məntəqələri.** İqtisadi rayonun tərkibi. Şəhərlərinin formalaşmasının və inkişafının xüsusiyyətləri. İstehsal və sosial infrastrukturların inkişafı. Əhalinin məskunlaşmasında əhəmiyyət kəsb edən şəhərlərin səciyyəsi. Şəhərlərdə kurort-turist təsərrüfatının inkişafında təbii şəraitin rolu.

## Ədəbiyyat

### Əsas

1. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramı (2004 – 2008,2009-2013,2014-2018, 2019-2-2023-cü illər).
2. Azərbaycanın iqtisadi və sosial coğrafiyası, pro., Əfəndiyev.V.Ə. redaktəsi ilə, Bakı 2010.

3. Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı (2011-2013), DSK, Bakı 2018, 230s.

4. Эфендиев.В.А., Нагиев.С.К., “География населения”, Баку 2005.

5. Əfəndiyev.V.Ə., Nağıyev.S.Q., “Geourbanistika”, Bakı 2016, 272s.

6. Əfəndiyev.V.Ə., “Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri”, Bakı, 2002.

7. Əfəndiyev V.Ə., Nağıyev.S.Q., “Əhali coğrafiyası”, Bakı 2005.

8. Əfəndiyev.V.Ə., Qasımova.F.E. “Azərbaycanda qəsəbə”, Bakı 2013.

9. Əfəndiyev.V.Ə., Dəmirqayayev.Ş.Q., “Azərbaycan Respublikası şəhərlərinin inkişafının coğrafi məsələləri”, Bakı 1995.

**Əlavə**

1. Azərbaycan Respublikası regionlarının 2019-2023cü illərdə sosial-iqtisadi inkişaf Dövlət Proqramı, Bakı 2019.
2. Azərbaycanın demoqrafik göstəriciləri 2021, DSK, Bakı 2022.
3. Azərbaycanın əhalisi 2021, DSK, Bakı 2022, 529s.
4. Нагиев. С.К., “Малые и средние города в системе расселения Азербайджана”, РГО, “Известия” Сане-Петербург 2009г. с.76-79.